**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ELNARƏ ELXAN QIZI QARAGÖZOVA**

# XXI ƏSRİN ƏVVƏLLƏRİ AZƏRBAYCAN ƏDƏBİYYATINDA ARXETİPİN YENİ FORMALARI

**5716.01 – Azərbaycan ədəbiyyatı**
**5715.01 – Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid**

**Filologiya üzrə fəlsəfə doktoru**
**elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Rəhilə Məmməd qızı Qeybullayeva**<br>filologiya üzrə elmlər doktoru, professor |
| **Rəsmi opponentlər:** | **Şirindil Həsən oğlu Alışanov**<br>filologiya üzrə elmlər doktoru, professor |
| | **Rafiq Manaf oğlu Novruzov**<br>filologiya üzrə elmlər doktoru, professor |
| **Aparıcı təşkilat:** | Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan ədəbiyyatı tarixi" kafedrası |

Müdafiə " _29__ "___02_______ 2016 -cı il saat ____ -da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən D.01.131 - Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı (IV mərtəbə)

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "____"___________ 2016-cı ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**filologiya üzrə elmlər doktoru,**
**professor:** **İmamverdi Yavər oğlu Həmidov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XXI əsrin əvvəllərində yaranmış ədəbiyyatın ilkin rüşeymləri XX əsrin sonunda – 90-cı illərdə təşəkkül tapmağa başlamışdı. 90-cı illər ədəbiyyatını təlatümlər dövrü ədəbiyyatı da adlandıra bilərik. Sovet İttifaqının dağılmasından sonra müstəqilliyin əldə olunması, Azərbaycan torpaqlarının 20 faizinin ermənilər tərəfindən zəbt olunması, 20 yanvar, Xocalı faciələri, keçid dövrünün digər çətinlikləri ədəbiyyatdan da yan keçmədi. Cəmiyyətdə kitaba, ədəbiyyata həvəs, maraq kəskin azalmışdı. Bütün bu proseslərin fonunda Azərbaycanda yeni ədəbiyyatın ilkin cizgiləri görünməyə başlayırdı. Məhz bu dövrdə Azərbaycan postmodernizmi formalaşır. İlk vaxtlar bu cərəyanın mahiyyətini ancaq üsyan, çılpaqlıq, eybəcərliyin azad təsviri kimi başa düşənlər çoxluq təşkil edirdi. "Yeni nəslin işlətdiyi "neo şeir", "neo roman" və s. anlayışlar sırasında daha çox diqqəti cəlb edən və tez-tez işlədilən "modernizm", "postmodernizm", "dekonstruktivizm" anlayışlarıdır ki, bir çoxunun bu barədə sadəcə məlumatı yoxdur. Bu, bəzilərində maraq assosiasiyası, böyük əksəriyyətdə isə [xüsusilə də yaşlı nəsildə] qorxu reaksiyası ilə müşahidə olunur"[1]. XXI əsrin ilk illərində gənc yazarlarda bir təmayül kəskin hiss olunurdu: ənənəvi dəyərlərə üsyan, forma və məzmunca yeni ədəbiyyat yaratmaq. Bəhs edilən dövrdə Azərbaycan ədəbiyyatında yeni meyllər və istiqamətlər özünü göstərir. Bu meyl və istiqamətlərin əsası 90-cı illərdə qoyulsa da məhz XXI əsrin ilk illərində daha ardıcıl olaraq təzahür edir. "XXI yüzilin astanasında, 2000-ci illərdən başlayaraq, milli ədəbiyyatın siması daha da çox rəngarənglik kəsb edir; klassik dəyərlərin yenidən dəyərləndirilməsi ilə yanaşı ən müasir, yenilikçi və postmodern yanaşmalar da ədəbiyyata nüfuz edir"[2].

Dissertasiya bəhs edilən dövrdə Azərbaycan ədəbiyyatında yeni yaranmaqda olan dekonstruksiya, tarixi hadisələrin yeni reinterpretasiyada təqdimatı, onların mövcud arxetipik süjetlərdən istifadə olunaraq fərqli aspektdən işlənməsi, bu zaman yaranan arxetip formaların araşdırılmasına və bu kontekstdə «əlyazma» və «oxşar» [dvoynik] arxetiplərinin, arxetipin strukturca yeni formaları olan «hipermətn» və «fan-fiction»un əksi məsələlərinə həsr edilmişdir ki, bu da mövzunun aktuallığını göstərir.

---

[1] Cabbarlı N. Yeni nəsl ədəbiyyatı. Bakı: Elm, 2006,səh. 26
[2] Əlişanoğlu T. Müstəqillik illəri Azərbaycan ədəbiyyatı [I hissə: 1990-cı illər]. Bakı: Qanun nəşriyyatı, 2013, səh. 8.

**Mövzunun tədqiqi səviyyəsi.** Tədqiqat Azərbaycan ədəbiyyatının mənşəyi, dünya ədəbiyyatı ilə əlaqəsi kimi məsələlərin aydınlaşdırılmasında mühüm bir mərhələ təşkil edir. Eyni zamanda, mövzunun aktuallığının böyük maraq doğurmasına baxmayaraq, hələ də az tədqiq olunmuşdur. Müasir dövrdə arxetiplər və arxetipik motivlər bir çox ədəbiyyatşünaslar, sənətşünaslar, psixoloqlar, psixiatrlar, marketoloqlar və filosoflar tərəfindən öyrənilməkdədir. Ümumiyyətlə, arxetiplərə maraq yalnız Azərbaycan ədəbiyyatşünaslığında deyil, ümumdünya ədəbiyyatşünaslığında son dövrlərdə xüsusilə aktuallıq kəsb edir və bu sahədə tədqiqatlar getdikcə artmaqdadır. Bu da müəyyən qədər dünyada gedən qloballaşma prosesləri və elmi-texniki tərəqqi ilə bağlıdır. Bu sayədə dünya ədəbiyyatlarının bir-biri ilə əlaqələri daha da möhkəmlənir və digər ədəbiyyatları öyrənən tədqiqatçılar müəyyən süjetlərin müxtəlif ədəbiyyatlarda hansı formalarda təkrarına diqqət ayırmağı vacib hesab edirlər.

Ədəbiyyatda, fəlsəfədə, müxtəlif incəsənət sahələrində, marketinq və reklam industriyasında, insanın psixikasında arxetipin əksi məsələlərinə yerli və xarici müəlliflərin bir sıra monoqrafiya, dissertasiya, elmi məqalə və tezisləri həsr edilmişdir. Fundamental araşdırmalar qismində xarici ölkələrin aşağıdakı alimlərinin tədqiqatlarını qeyd etmək olar: C.Kempbel, E. Noyman, Q. Simmer, İ. Kazenyov, M. Eliade, N.Fray, M. Bodkin, D. Ueston, E. Meletinskiy, A. Rutkeviç, A.Bolşakova, V. Markov, S. Averintsev və b.

Digər bir tərəfdən qeyd etmək lazımdır ki, Azərbaycan ədəbiyyatşünaslığında da arxetipin tədqiqinə dair maraqlı araşdırmalar, dəyərli tədqiqatlar mövcuddur. Bu sahədə fərdi araşdırmaların aparılması ilə yanaşı ölkəmizdə Müqayisəli Ədəbiyyatşünaslıq Assosiasiyası və Bakı Slavyan Universiteti ilə birgə "Müqayisəli ədəbiyyatşünaslıq ədəbiyyatlarda və mədəniyyətlərdə arxetiplər" adlı beynəlxalq konfrans da keçirilmişdir və həmin konfransın materialları Almaniyada ingiliscə dərc olunmuşdur.Məcmuədə xarici alimlərdən İ.Horvathın, G.Bakayın, A.Galiyevin, Y.Lyutskanovun, azərbaycanlı alimlərdən K.Abdullayevin, Q.Quliyevin, M.Qocayevin, S. Baxışın araşdırmaları yeniliyi və dolğunluğu ilə diqqəti cəlb edir[3].

---

[3] Archetypes in Literatures and Cultures. Peter Lang Publisher. Frankfurt am Main, Berlin, Bern, Bruxelles, New York, Oxford, Wien. 2012.

Digər tərəfdən qeyd etmək lazımdır ki, Azərbaycan fəlsəfə elmində də arxetiplərin araşdırılmasına xüsusi diqqət ayrılmışdır. Bu sahədə xüsusilə N. Mehdinin və H. Quliyevin tədqiqatlarını qeyd etmək istərdik.

Yuxarıda adı çəkilən tədqiqatçıların elmi araşdırmalarının nəzəri müddəalarından bəhrələnərək, XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında arxetipik motivlərin təzahür formaları və əksi tendensiyaları, xüsusiyyətləri tədqiq edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Araşdırmanın obyektini XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı təşkil edir. Dissertasiyada XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında arxetiplərin dekonstruksiyasını, formaca dəyişməsini və ədəbiyyatımız üçün yeni olan arxetipləri daha dərindən araşdırmaq üçün bütövlükdə Azərbaycan ədəbiyyatına ekskurs edərək bir sıra daha intensiv işlənən arxetiplər haqqında məlumat vermişik. Qeyd etdiyimiz kimi, araşdırmağa cəlb etdiyimiz su, dərviş, ağac, dəyirman arxetipləri XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında da heç bir dekonstruksiyaya uğramadan olduğu kimi əks olunmaqdadır. Oxşar və əlyazma arxetipləri isə Azərbaycan ədəbiyyatı üçün tam yeni arxetiplərdir. Doğrudur, XX əsr Azərbaycan ədəbiyyatında əlyazma arxetipi Y. Səmədoğlunun "Qətl günü" əsərində çox gözəl işlənmişdir. Lakin müasir ədəbiyyatımızda əks olunan əlyazma arxetipi bir sıra fərqli xüsusiyyətləri ilə yadda qalır. Belə ki, Y. Səmədoğlunun "əlyazma"sı ehtimal olunan bir əsərin varlığını sübut edir və əlyazmanın tapılması bir yazıçının yaradıcılığına dair məlumatın tamamlanmasına xidmət edir. Lakin K. Abdullanın və S. Rüstəmxanlının "əlyazma"sı bir toplumun, bir etnosun taleyini əks etdirir, ədəbi kultu və kanonik mətni dəyişir.

XXI əsr Azərbaycan ədəbiyyatında əks olunan "oxşar" arxetipi ədəbiyyatımız üçün tam yeni bir obrazdır. Daha öncəki Azərbaycan ədəbiyyatında bu obraza rast gəlinmir. Fikrimizcə, bu arxetipin ədəbiyyatımızda ilk nümunəsini araşdırmaya cəlb etmək və daha sonralar həmin arxetipin ədəbiyyatımızdakı inkişafını izləmək milli ədəbiyyatda yeni arxetipik obrazların işlənmə formalarının tədqiqi baxımından əhəmiyyətlidir.

Beləliklə, XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında arxetiplərin yeni formalarının yaranması və bu formaların sənətkarlıq xüsusiyyətlərinin öyrənilməsi dissertasiyanın əsas tədqiqat predmetidir. Mövzu tədqiq edilərkən Azərbaycan ədəbiyyatına, dünya ədəbiyyatına dair nəşr edilmiş bədii və elmi əsərlərdən, arxetiplər nəzəriyyəsi ilə bağlı araşdırmalardan istifadə olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi XXI

əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında əks olunmuş arxetiplərin yeni formalarının təzahürünün öyrənilməsi və bu zəmində Azərbaycan və dünya ədəbiyyatı nümunələrində «əlyazma» və «oxşar» arxetiplərinin əksinin müqayisəli təhlilə cəlb olunması, arxetipin yeni formaları olan «hipermətn» və «fan-fiction»un araşdırılmasıdır. Nəzərdə tutulmuş məqsəd aşağıdakı problemlərin təhlilini müəyyən etmişdir:

- Arxetip anlayışına dair müxtəlif nəzəriyyə və metodlarların təhlil edilməsi;
- Azərbaycan ədəbiyyatında arxetiplərin təzahürü: su, dəyirman, dərviş, ağac arxetipləri; «əlyazma» arxetipi və onun təzahür formaları;
- Gündəlik, memuar və məktub «əlyazma» arxetipinin növləri kimi;
- Ədəbiyyatda «oxşar» arxetipinin təzahürü;
- «oxşar» arxetipinin təzahür formaları : siyasi «oxşar»lar və mifoloji «oxşar»lar
- «hipermətn» və «fan-fiction» konvergensiya mədəniyyətinin və arxetipin yeni formaları kimi;
- «fan-fiction»un mahiyyətinin açılması. Fanatların bədii əsərə sərbəst münasibəti və yazıçı tərəfindən eyni əsər çərçivəsində «fan-fiction». Bu iki formanın «oxşar» və fərqli məqamları. Virtual məkanda [İnternetdə] «fan-fiction»un təzahürü.
- «hipermətn»in ilkin formaları; «hipermətn» və multifinal variasiyalar; «hipermətn» bir arxetip süjetin variasiyaları kimi; arxetipin «hipermətn» kimi yenidən yaradılması; dekonstruksiya və «hipermətn».

**Tədqiqat işinin metodoloji əsası.** Araşdırmalar zamanı mövzu ilə əlaqədar elmi nəşrlərdən, elmi – praktiki konfransların metodoloji əhəmiyyət daşıyan müvafiq materiallarından istifadə edilmişdir. Qarşıya qoyulan məqsədlərə çatmaq üçün ədəbiyyata müqayisəli yanaşmanın ümumi metodoloji müddəalarından təhlillər zamanı istifadə edilmişdir.

**Dissertasiyanın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyini müasir dövrdə bədii ədəbiyyatın inkişafının spesifik xüsusiyyətləri nəzərə alınmaqla Azərbaycan ədəbiyyatında arxetipin yeni formalarının dünya ədəbiyyatı ilə əlaqəli şəkildə hərtərəfli və əhatəli tədqiqi nəticəsində XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında arxetipin yeni formalarının üzə çıxarılması və təhlili təşkil edir. İşin elmi yeniliklərinə aid olanlar qismində aşağıdakıları göstərmək olar :

- Arxetip anlayışına dair nəzəri müddəalar araşdırılaraq ümumiləşdirilmiş, Azərbaycan ədəbiyyatında əksi formaları dəyərləndirilmişdir;
- Azərbaycan ədəbiyyatında müxtəlif arxetiplərin təzahürü dünya ədəbiyyatı ilə müqayisəli şəkildə araşdırılmışdır;

- Azərbaycan ədəbiyyatında hələ də tam formalaşmayan, arxetipin yeni formaları olan «hipermətn» və «fan-fiction»un təzahürünün potensial imkanları nəzərdən keçirilmişdir;

- Müasir Azərbaycan ədəbiyyatının «fan-fiction» və «hipermətn» formasında olan nümunələri öyrənilərək dünya ədəbiyyatının müvafiq nümunələri ilə müqayisəli tədqiq edilmişdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiyada Azərbaycan ədəbiyyatında arxetiplərin təzahür formaları müəyyənləşdirilmiş və işdə əldə edilən elmi nəticələr Azərbaycan ədəbiyyatı və ədəbiyyat nəzəriyyəsi fənlərinin tədrisində, tədris proqramı və metodik vəsaitlərin hazırlanması zamanı, həmçinin bu istiqamətdə aparılan araşdırmalarda istifadə edilə bilər.

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" şöbəsində yerinə yetirilmişdir. Dissertasiyanın əsas məzmunu müəllifin respublikada və Almaniyada nüfuzlu elmi jurnallarda dərc olunmuş məqalələrində, beynəlxalq və respublika elmi-praktiki konfranslarında məruzə edilmiş tezislərdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **«Giriş»** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın predmeti, tədqiq tarixi, elmi-nəzəri əsasları, məqsəd və vəzifələri, elmi yenilikləri, nəzəri və praktik əhəmiyyəti haqqında məlumat verilmişdir.

Tədqiqatın **"XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında "«əlyazma»" (janr) və "«oxşar»" (obraz) arxetipləri"** adlanan I fəsli dörd yarımfəsildən ibarətdir. **"Arxetiplər nəzəriyyəsi və ədəbi nümunələrinin təhlilində arxetiplər nəzəriyyəsinin tətbiqi "** adlanan I yarımfəsil arxetiplər nəzəriyyəsi ilə bağlı ədəbiyyatşünaslıqda öz əksini tapan müxtəlif fikirlərin aydınlaşdırılmasına həsr edilmişdir.

Ədəbiyyatşünaslıqda ədəbiyyatın tədqiqi üçün müxtəlif dövrlərdə müxtəlif konsepsiya və metodlardan istifadə edilmişdir. XX əsrdən etibarən ədəbiyyatın tədqiqində psixoanalizdən geniş istifadə olunmuşdur və hal-hazırda da həmin tendensiya öz aktuallığını qoruyub saxlamaqdadır.

Z. Freyd müəllifi olduğu psixoanalizi ilk öncə "başqa heç bir yolla öyrənilməsi mümkün olmayan proseslərin tədqiq proseduru» adlandırırdı. İkincisi,»nevrotik pozuntuların müalicəsi üçün metod» və sonda,» psixoanaliz vasitəsilə elmdə olan yeniliklərin tədricən toplanması, psixi informasiyanın miqdarı» hesab edirdi. Başqa sözlə, Freyd öz təlimini həm psixoloji tədqiqat, həm müalicə üsulu, həm də dünyagörüşü kimi şərh edirdi[4]. Z. Freyd ədəbi yaradıcılığa da psixoanalitik mövqedən yanaşmışdır. O fantaziyanı yuxu ilə, şairi isə xəyalpərvər ilə qarşılaşdıraraq poetik yaradıcılığı ayıqkən görülən yuxu hesab edir. "Güclü aktual həyəcan şairdə keçmiş haqqında xatirələri - əsas hissəsi uşaqlıqda yaşanılmış, yalnız poetik təxəyyüldə realizə oluna bilən həyəcan və arzuları oyadır. Əsərin özü hər iki qatı - yeni səbəbi və köhnə həyəcanı əks etdirir".[5]

Yunqun fərziyyəsinə görə isə kollektiv şüursuzluq ilkin psixi obrazlar olan arxetiplərdən ibarətdir. Arxetiplər anadangəlmə fikir və təəssüratlardır. Arxetiplərin sayəsində biz rastlaşdığımız konkret situasiyalara müəyyən emosiya və davranışlarla cavab veririk. Məs: ilan-ölüm arxetipi». Arxetip – simvolik düsturdur. O, şüurlu anlayışlar olan yerdə... funksiyaya çevrilir».[6]

I fəslin **"Azərbaycan ədəbiyyatında su, dərviş, dəyirman və ağac arxetipləri"** adlı II yarımfəslində ədəbiyyatşünaslıqda müəyyən qədər tədqiq olunmuş klassik arxetiplərə diqqət yetirilmiş, Azərbaycan ədəbiyyatında bu arxetiplərin əksi təhlil edilmişdir.

Müasir Azərbaycan ədəbiyyatı nümunələrindən olan Elçinin "Dəyişmə" hekayəsində də su arxetipi əks olunmuşdur.Elçinin "Su" hekayəsində isə suyun olmaması fonunda qadının daha çox şüur selinə oxşayan monoloqu səslənir.

Vaqif Səmədoğlunun poeziyasında su arxetipi xüsusilə intensiv işlənir. Şair üçün dəniz həyatın, ömrün simvoludur. Dənizə çıxan gəmilər dünyaya gələn, yaşayan, həyatın burulğanlarında itən və ömründən bir qayıq – bir ümid belə keçməyən insanları simvolizə edir. Vaqif Səmədoğlu üçün yağış "şüur seli"dir, şüuraltıda unudulmuş, yaxud unutduğuna inandığı hisslərin, duyğuların geridönüşüdür.

---

[4] Mehdi N. Froyddan və Yunqdan bir-iki kəlmə (Şəxsiyyətin psixoloji portreti) http://axar.az/news/31013

[5] Фрейд З. Поэт и фантазия // Вопросы литературы. 1990. № 8. С.165.

[6] Jung C.G. Memories, Dreams, Reflektions. Rekorded and ed. By A.Jaffe. London, 1967, p. 104.

Ədəbiyyatda rast gəlinən maraqlı obrazlardan biri olan dərviş obrazı Azərbaycan ədəbiyyatında ikili – mənfi və müsbət kontekstdə təsvir olunmuşdur.

İsa Hüseynovun "Məhşər" romanında da iki tip dərvişlərdən bəhs olunur: hürufi-sufi dərvişlər və Əmir Teymurun qara dərvişləri. Birincilər ilahi eşqin, haqq yolunun dərvişləridir, ikincilər isə casus və zülmkardırlar. M.F.Axundovun "Hekayəti Müsyö Jordan Həkimi-Nəbatat və Dərviş Məstəli Şah Cadükuni Məşhur" əsərində dərviş Məstəli şah cadugərliklə məşğul olur. Kamal Abdullanın "Sehrbazlar dərəsi" əsərində də dərvişlər sehrbaz funksiyasını yerinə yetirirlər.

Ədəbiyyatda rast gəlinən maraqlı arxetiplərdən biri də dəyirman arxetipidir. Dəyirman çörəyin bişirilməsi üçün unun üyüdüldüyü bir məkan kimi bərəkətin və ruzinin simvolu hesab edilir. Lakin ədəbiyyatda dəyirman arxetipi yalnız bərəkəti, xeyri ifadə etmir. Bu arxetip modifikasiyaya uğrayaraq, şərin məkanına çevrilmişdir. Azərbaycan ədəbiyyatında dəyirman arxetipinin şər yönümünü, modifikasiyasını əsasən M. Süleymanlının "Dəyirman" və "Şeytan" əsərləri ilə bağlayırlar. H. Mirələmovun "Dağlarda atılan güllə" romanında da dəyirman obrazına rast gəlirik. Əsərdə Qarabağ müharibəsi zamanı bir kəndin sakinləri düşməndən intiqam almaq üçün köhnə bir su dəyirmanında toplaşırlar. Burada bir ailə kimi yaşayır və mübarizə aparırlar.

XX əsr Azərbaycan ədəbiyyatında maraqlı və dolğun yaradıcılığı ilə özünəməxsus yer tutan Bəxtiyar Vahabzadə yaradıcılığında rast gəlinən, türk mifoloji təfəkkürü ilə bağlı arxetiplərdən biri ağacdır. Bəxtiyar Vahabzadə yaradıcılığında ağac arxetipi aşağıdakı formalarda təzahür edir:

- Eşq həyat ağacına, insanlar isə bu ağacın barına bənzədilir.
- İnsan ağacla eyniləşdirilir, ağac insanın simvoluna çevrilir.
- İnsan ömrü ağaca, yarpaqlar isə ömrün günlərinə bənzədilir.
- Ağaca bənzədilmə çox zaman birliyi, bir kökdən gəlməni vurğulayır.

Dissertasiyanın I fəslinin üçüncü yarımfəsli **"XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında "oxşar" və "əlyazma" arxetipləri"** adlanır. Bir çox mədəniyyətlərdə insanın və heyvanların «oxşar»larının mövcudluğuna inam özünü göstərir. «Oxşar» obrazının yaranması qədim mifoloji köklərə dayanır. Lakin «oxşar» obrazı çox zaman insanın mənfi səciyyəli əkizi, faciəli mövzu ilə bağlıdır. Fikrimizcə, «oxşar» arxetipi Yunqun kölgə arxetipinin təzahür formasıdır. Kölgə arxetipi bir tərəfdən fərdi, digər tərəfdən də kollektiv şüursuzluğa söykənir. Yunqun fikrincə "Şeytan Kölgə arxetipinin variantıdır, yəni insanın etiraf edilməyən,

qaranlıq, təhlükəli yarısıdır”.[7] Biz siyasi «oxşar»ların ədəbiyyatda əksini K. Abdullanın “Yarımçıq əlyazma” və L. Feyxtvangerin “Yalançı Neron” əsərlərinin müqayisəli təhlili əsasında araşdırmağa çalışmışıq. K. Abdullanın “Yarımçıq əlyazma” əsərindəki süjet xətlərindən biri Şah İsmayıl Xətai ilə bağlıdır. Romanda Şah İsmayılın lələsi [tərbiyəçisi] Hüseyn bəy Lələ şahın tapşırığı ilə onun Xızır adlı «oxşar»ını tapıb gətirir. L. Feyxtvangerin „Yalançı Neron“ əsərində isə imperator Neronun «oxşar»ı Terrensini Senator Varron tapıb gətirir ki, imperator onunla əylənsin.

Fikrimizcə, hər iki oxşarın – Xızırın və Terrensinin ölümü arasındakı fərq onların oxşar (kölgə) rolunu oynadıqları zaman həm də daxillərindəki kölgələri ilə apardıqları mübarizənin yekunu kimi qiymətləndirilə bilər. Qeyd etmək lazımdır ki, Xızırın varlığı yalnız Hüseyn bəy Lələyə və vəzirə məlum olduğundan onun ölümü Şah İsmayılın ölümü kimi qəbul olunur. Xızır xəyanətdə ittiham olunub qətlə yetirilsə də, şah kimi şərəflə və hörmətlə dəfn olunur. Terrensi yalançı Neron kimi rüsvayçılıqla dar ağacından asılır. O, kölgə rolunu oynayarkən öz kölgəsinə məğlub olur və bu səbəbdən oxucu onun ölümünü mənliyindən imtina etmiş kuklanın səhnədən çıxması kimi qarşılayır. Hüseyn Lələ bəy Xızırı xəyanətdə günahlandırsa da o, sadəcə Şah İsmayıla verdiyi vədi yerinə yetirmişdi. Terrensidən fərqli olaraq ucuz şöhrətə görə şəxsiyyətini alçaltmamışdı və bu səbəbdən ölümü onu oxucunun gözündən salmır, hətta Hüseyn Lələ bəyə etirazını bildirmək istəyi oyadır.

Bu fəsildə XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında əks olunmuş daha bir arxetip - “əlyazma” arxetipi tədqiq edilmişdir. «Əlyazma» arxetipinin təzahürlərindən biri də məktubdur. «əlyazma»nın bu növü daha mübhəm xarakter daşıyır. Əgər «əlyazma»nın digər növlərinin nə vaxtsa sosiallaşması, cəmiyyətə təqdimi nəzərdə tutulursa, məktub sırf məxfilik pərdəsi altında gizlənir. Gündəlik bu baxımdan daha da mübhəmdir. Gündəlikdə fikirlər daha sərbəst, cilalanmamış olur. Məktubda isə artıq müəyyən qayda-qanun gözlənilir. Hətta tarixən məktubun şablon formaları, ifadələri də yaranmışdır [“Poçt qutusu” hekayəsindəki məktub şablonu və s.]. Müasir ədəbiyyata nəzər saldıqda məktub obrazının dekonstruksiyaya uğradığını görürük. Belə ki, əvvəlki dövrlərdə məktub ədəbi obraz kimi iki keyfiyyəti özündə birləşdirirdi:

1. iki insan arasında dialoq;
2. Bir insanın monoloqu.

[7] Юнг К.Г. Собрание сочинений, т. 9, М., 1968,стр.101.

Müasir ədəbiyyatda məktub daha yeni və fərqli funksiyada çıxış edir: insanın özü ilə dialoq vasitəsi. Burada diqqətə çatdırmaq istərdik ki, bu insanın sadəcə özü ilə deyil, şüuraltısı ilə dialoqu şəklində təzahür edir.

Azərbaycan ədəbiyyatşünası və yazıçısı A.Talıbzadənin "Kəpənək modeli-102" əsərində qəhrəman öz uşaqlığı ilə «e-mail» vasitəsi ilə məktublaşır. Əsərdə Oqtay öz uşaqlığı olan Əsədlə eyni zaman kəsiyində təsvir olunur. Əvvəlki zaman-məkan ardıcıllığı pozulur, müxtəlif zamanlarda baş vermiş və ya baş verə biləcək hadisələr bir zaman dilimində paralel şəkildə göstərilir.

Gündəliyin ədəbi formaya çevrilməsinin əsas səbəblərindən biri yazıçının obrazın daxili aləmini oxucuya sənədlərlə, mötəbər şəhadətnamələr və həyat faktı əsasında daha inandırıcı şəkildə təqdim etmək istəyi olmuşdur. "Ümumiyyətlə, gündəlik "təhlükəli" janrdır: gündəliyin qəhrəmanı ilə öz müəllif obrazı arasında distansiya saxlanılmalıdır. Öz personajlarının səsinə "səs vermək" – bioqrafiyaya meylli əsərlərin əsas emosional xəttidir".[8]

XXI əsrin əvvəllərində yaranan Azərbaycan və dünya ədəbiyyatında rast gəlinən maraqlı arxetiplərdən biri də «əlyazma» arxetipidir. Qeyd etmək lazımdır ki, bu arxetip XX əsr ədəbiyyatında da özünəməxsus şəkildə təzahür etmişdir. Rus ədəbiyyatında M. Bulqakovun yaratdığı və müəyyən məqamlarda Hötenin "Faust"u ilə səsləşən "Master və Marqarita" romanında da əsas obrazlardan biri «əlyazma»dır.

Y.Səmədoğlunun "Qətl günü" əsərində də itmiş «əlyazma» obrazı təsvir olunmuşdur. Əsərdə təsvir olunan 3 zaman kəsiyindən biri məhz əsərdəki hadisələri əks etdirir. Şah Qacar dövrünü əks etdirən əsər müəllifi 30-cu illərin repressiyasına məruz qalır. Bunu öncədən hiss edən müəllif əsəri qonşularından birinə verir. Lakin özündən və həmin qonşudan başqa heç kəs bunu bilmir. Beləliklə əsər itir. İllər sonra onun ruhi xəstə olan qızı Səlimə xanım «əlyazma»nı axtarıb tapır.

«Əlyazma» arxetipinin tədqiqi baxımından U.Ekonun "Qızılgülün adı" və K. Abdullanın «Yarımçıq əlyazma» əsərlərinin müqayisəsi maraqlı məqamları üzə çıxarmaqda nümunə rolunu oynaya bilər. İlk öncə qeyd etmək istərdik ki, hər iki yazıçı ədəbiyyatşünaslıq sahəsində tanınmış mütəxəssisdir. U. Ekonun təsvir etdiyi «əlyazma» yanaraq külə dönürsə, K. Abdullanın tapdığı «əlyazma» yenidən «əlyazma»lar fondunda naməlum və isimsiz şəkildə varlığını davam etdirir. Əgər Eko oxucuya «əlyazma»nın son taleyini göstərirsə, K. Abdulla oxucunu «əlyazma»nın taleyi ilə bağlı

[8] Kamal R. Kamal Abdulla: Yazıdan mifə. Bakı: Mütərcim, 2011,səh. 100

fikirlərlə baş-başa qoyaraq əsərini tamamlayır. Məntiqi olaraq «əlyazma»nın sonrakı taleyi ilə bağlı müxtəlif oxucu versiyaları və beləliklə əsərin mümkün sonluq versiyaları meydana gəlir. Belə demək mümkünsə, əsərin virtual həyatı davam edir.

Dissertasiyanın II fəsli **“Azərbaycan postmodern ədəbiyyatında “fanat mətni” - «fan-fiction» və «hipermətn»”** adlanır. Bu fəsil 3 yarımfəsildən ibarətdir.I yarımfəsil “Müasir dünya ədəbi prosesində postmodernizm” adlanır. XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatından danışarkən qeyd etmək istərdik ki, 90-cı illərdən etibarən ədəbiyyatımıza, ədəbi mühitə gələn yeni formalar, janrlar çox zaman kor-koranə şəkildə bir adla - postmodern adı ilə adlandırılmışdır. Bu səbəbdən ilk öncə postmodernizmin mahiyyətinə və Azərbaycan ədəbi mühitində bu anlayışın məna təzahürlərinə diqqət çəkmək istərdik. Ədəbi cərəyanlar müəyyən dövrdə formalaşaraq həmin tarixi zamanın xüsusiyyətlərini əks etdirir, ədəbi prosesdə bir növ mayak rolunu oynayır. Ədəbi fikir tarixində fenomenal adlandırıla biləcək belə cərəyanlardan biri postmodernizmdir. Postmodernizm tarix səhnəsinə çıxdığı gündən böyük səs-küyə, müzakirələrə səbəb olmuşdur. Hər bir tənqidçi, nəzəriyyəçi, yazıçı, oxucu onu öz başa düşdüyü kimi izah etməyə səy göstərmişdir. Bu bəlkə də postmodernizmin öz mahiyyətindən doğan bir haldır.

Postmodernizm Azərbaycan ədəbi-bədii düşüncəsinə bir sıra yeni əsərlər və obrazlar gətirdi. Bu sırada K. Abdullanın, İ. Fəhminin, A. Talıbzadənin, N. Kamalın, E. Hüseynbəylinin, S. Səxavətin və b. yaradıcılığını qeyd etmək olar. Eyni zamanda postmodernizm daha öncələr ədəbiyyata gəlmiş yazıçıların yaradıcılığında yeni bir dövrün başlanğıcını qoydu. Postmodernizmin bu yazıçılara təsiri fərdi şəkildə və müxtəlif səviyyədə özünü göstərir.Bu yazıçılardan biri də Azərbaycan ədəbiyyatında özünəməxsusluğu ilə seçilən qadın ediblərimizdən olan Afaq Məsuddur Onun yaradıcılığı oxucunu sadə, aydın və eyni zamanda fəlsəfi təhkiyəsi ilə cəlb edir. Afaq Məsud dedikdə gözlərimiz önündə maraqlı, emosional, daxili aləmini səmimiyyətlə, kompleksiz şəkildə oxucuya açan və oxucunun özünə belə etiraf etməyə çəkindiyi duyğuları, yaşantıları cəsarətlə söyləyən obrazlar canlanır. Afaq Məsudun son dövr yaradıcılığı əvvəlki dönəmdən bir qədər fərqlənir. Daha öncəki yaradıcılığında yazıçı fəlsəfi notları sadə insanların, gündəlik həyatın təsviri ilə çox incə şəkildə, ustalıqla birləşdirirdi və bu sintezi oxucu çox təbii qarşılayırdı, sevirdi. Afaq Məsudun son dövr yaradıcılığına nəzər saldıqda aydın olur ki, yazıçı artıq gündəlik həyat lövhələrini təfərrüatlı təsvirindən bir qədər uzaqlaşıb daha çox fəlsəfi notlar üzərində köklənib. Lakin Afaq Məsudun

özünəməxsusluğu ondadır ki, əsərlərində fəlsəfi məqamlar artdıqca, forma mürəkkəbliyi yarandıqca səmimilik azalmır, əksinə artır və bu da həmin əsərləri oxucuya sevdirir. Bu baxımdan onun “İzdiham” romanı olduqca maraqlı və qeyri-ordinar bir əsərdir. Tədqiqatçılar haqlı olaraq bu əsəri Azərbaycan ədəbiyyatının ən qeyri-adi nümunələrindən biri hesab edirlər. Ramiz Rövşənin fikrincə, “kaleydoskop kimi anbaan dəyişən hadisələrlə dolu olan, yazılı ədəbiyyatdan daha çox qaravəllililəri, bəzən hətta cizgi filmlərini yada salan “İzdiham” romanı ilə Afaqın yaradıcılığında bütöv bir mərhələ başa çatır. Sonrakı yazılarında o özünün zaman və məkan sərhədlərini aşır, sanki darısqal mənzildən geniş küçələrə, meydanlara çıxır, yalnız bir evi, ailəni yox, bir ölkəni, hətta dünyanı sıxan problemlərin ən azı, bədii həllini tapmağa çalışır”[9] Tənqidçi, ədəbiyyatşünas prof. T. Əlişanoğlu isə Afaq Məsudun “İzdiham” əsəri haqqında yazır: “İzdiham”povestində (1992) ətrafda baş verən hadisələrin təhtəlşüurla ilgili izahına cəhd var. Burda, əslində, fərdin timsalında kütlə portretini tipikləşdirmək meyli aydın duyulur.”[10] Ümumiyyətlə, Afaq Məsudun bu romanının təhkiyəsini modernizmin əsas anlayışlarından biri olan “şüur seli” termini ilə səciyyələndirmək daha doğru və dəqiq olar. “Qərbi Avropa və Amerika ədəbi tənqidində psixologiyadan alınmış “şüur seli” anlayışı adətən “daxili monoloq” ilə eyniləşdirilir. Müasir ənənədə “şüur seli” “daxili monoloq”un son pilləsi, kəskin forması hesab edilir. “Şüur seli” psixi halların təsvirində “iştirak”, “dərdə şəriklik” illüziyalarının xüsusi dolğunluğunu təmin edir”[11]. Əsər boyu yalnız bir qəhrəmanın yaşantıları, duyğuları, keçirdiyi emosiyalar, kabusları, daxili qənaətləri əks olunur. Yazıçının ustalığı ondadır ki, oxucu heç cür təyin edə bilmir ki, müəllif qəhrəmanın yuxusunu danışır (əsərdə nə birbaşa, nə də dolayı yolla müəllif görünmür), ya obraz öz röyasını nəql edir (əsər I şəxsin dilindən nəql olunsa idi obrazın öz yuxusunu danışdığını söyləmək olardı) yoxsa hipnoz altında şüuraltısının özünün belə dərk etmədiyi labirintlərində səyahət edir. Afaq Məsud “İzdiham” romanı ilə qəhrəmanın həyatını kənardan kinolent kimi oxucuya göstərir və oxucu müəllifin varlığını unudaraq romanın daxilində yaşamağa başlayır. Romanı oxuyarkən oxucuya elə gəlir ki, sanki qəhrəman öz ömrünü tərsinə - axırdan əvvələ doğru yaşayır, daha doğrusu yuxu ilə oyaqlıq, kabusla ilğım arasında bir halətdə ömür yolunun retrospeksiyasını görür.

---

[9] Məsud A. Yazı.(roman, esse, hekayə). Bakı, “Qanun”, 2005. səh. 5
[10] Əlişanoğlu T. Müstəqillik illəri Azərbaycan ədəbiyyatı [I hissə: 1990-cı illər]. Bakı: Qanun nəşriyyatı, 2013. səh. 59
[11] Потóк сознáния http://feb-web.ru/feb/kle/kle-abc/ke5/ke5-9171.htm

Romanda açıq-aşkar ata kultunun izləri var. Bütün olayların mərkəzində məhz atanın ölümü durur. Əsər boyu qadın atasını qorumağa çalışır, lakin bacarmır. Atanın ölümü ilə yaranan ekstaz halında qadının ömründə sanki saatın əqrəbləri əksinə fırlanmağa başlayır: övladlar, toy, atalı – analı anlar, məktəb illəri, müəllimlər, uşaqlıq, bağça təəssüratları və nəhayət dünyaya gəlişi: “onu da topuqlarından tutub başıaşağı sallamışdılar. Sonra eləcə tərsi mayallaq vəziyyətdə ağ geyimdə ağ yataqda yatan anasına göstərdilər”.[12]

Ümumiyyətlə, romanı oxuduqca sanki bir labirintə düşürsən, lakin bu labirint oxucuda qorxu deyil, qəribə bir inam və sevinc yaradır. Oxucu hiss edir ki, onu qarşıda maraqlı bir dünya gözləyir və qəhrəmanının yaşadığı qeyri-adi hadisələr, duyğular, transformasiyalar qəribə olduğu qədər də təbii, doğma təsir bağışlayır, öz səmimiliyi ilə oxucuya təhtəlşüur səviyyəsində nəyi xatırladır, yada salır.

II fəslin ikinci yarımfəsli **“Ədəbiyyatda «hipermətn»”** adlanır. «Hipermətn» anlayışı elmə XX əsrin 60-80-ci illərində Teodor Nelson tərəfindən daxil edilmişdir. Onun fikrincə «hipermətn»in əsas xüsusiyyəti ardıcıllığın olmaması və istifadəçinin mətndə gözlənilməz keçid etməsindən ibarətdir. Sonralar, 1981-ci ildə “Literary machine” kitabında o daha dəqiq tərif vermişdir: “«hipermətn» deyəndə mən budaqlanan və oxucuya seçim imkanı verən mətn başa düşürəm. Sadəcə olaraq bu linklərlə birləşmiş, oxucuya müxtəlif yollar təqdim edən mətn parçalarıdır.[13]”

Eyni bir müəllifin öz əsərinə nəzirə yazması «hipermətn»in növlərindən biridir. Məsələn, Con Faulz “Fransız leytinantının qadını” əsərinə üç müxtəlif davam yazmışdır. Və yaxud Milorad Paviç “Xəzər sözlüyü” əsərinə 200-ə yaxın sonluq yazmışdır.[14] Həmçinin Kamal Abdulla “Kitabi - Dədə Qorqud” dastanını həm elmi əsər, həm dram, həm də şeir şəklində yazmışdır.

Afaq Məsudun da 2000-ci illər yaradıcılığında hipermətn nümunələrinə rast gəlmək olar. Məsələn, yazıçının 2003-cü ildə qələmə aldığı “Can üstə” adlı hekayəsi və eyni adlı pyesi buna bariz nümunədir. Qeyd edək ki, hekayə daha çox realist notlar üzərində köklənib. Əsərin

---

[12] Məsud A. Yazı.(roman, esse, hekayə). Bakı, “Qanun”, 2005. səh. 217

[13] Price D.J.D. Networks of scientific papers // Science, 1965, vol.149, no.3683, pp.510-515.

[14] Geybullayeva R. From archetypal situation to archetypised words or words as unit of semantic reinterpretations// Archetypes in Literatures and Cultures. Peter Lang Publisher. Frankfurt am Main, Berlin, Bern, Bruxelles, New York, Oxford, Wien. 2012. pp. 17.

əsas qəhrəmanı olan yazıçı ölüm ayağında olan vaxtilə mötəbər vəzifələrdə işləmiş qocanın şəxsi arxivi ilə maraqlanır, onun göz bəbəyi kimi qoruduğu qovluqlarda keçmişin bir sıra sirlərinin açarını tapacağına inanır. Qocanın yazıçıdan xoflanmasına da səbəb məhz bu inamdır. “Qocanın bu ölüm tutmaları mənim inqilabdan sonrakı dövrlər barədə roman yazdığımı bilən gündən başlamışdı. Ona qədər isə o, evin içində gümrah addımlarla gəzib dolanır, məni görcək, sevincək halda evdəkilərin əhvalını xəbər alır, məni içdiyi çaya, yediyi xörəyə qonaq edirdi. Hər şey günlərin bir günü Səidənin mətləbi açıb, onun vəzifədə olduğu dövrlər barədə roman yazdığımı deyəndən bəri başlamışdı. Onun, bu xəbəri qəfil ölüm hökmü kimi qəbul etdiyini, Səidə ilə mən qocanın, oturduğu yerdə birdən-birə ağarmasından, üzündə ölüm qorxusunun kölgəsini andıran bozumtul kölgələrin dolaşmağa başlamasından anlamışdıq. Qoca avazımış bənizi ilə donub qalmış, sonra ayağa qalxıb ehmal addımlarla otaqdan çıxmışdı. Dəhlizdən sivişib hamama girmiş, qapını o biri üzdən qıfıllayaraq, axşama qədər, mən onu gözləməkdən cana doyub evə gedənəcən oradan çıxmamışdı.” [15]. Bu qovluqları araşdıracağı günü səbirsizliklə gözləyən yazıçı qocanın can üstə olduğu vaxt imkan tapıb bu sirr dağarcıqlarından birinə nəzər salmaq imkanını əldə edə bilir. Lakin qarşılaşdığı mənzərə onu heyrətləndirir: “Düyünün çəkilməyi ilə, illərdən bəri qovluğun darısqallığında gərilmiş kağız qalağının, yumşaq kart dəsti kimi stolun üstünə dağılmağı bir oldu. Səhifənin birini əlimə alıb oxumağa başladım. Əvvəli səhifənin ortasından başlayıb getdicə harasa, aşağı – vərəqin ortasına enən əyri-üyrü hərflərlə yazılmış sözlər, cümlələr yazıdan çox, bir ayağı mürəkkəbə batmış yaralı kəpənəyin səhifə boyu gəzişməsini andırırdı. Höccələyə-höccələyə bir neçə cümləni oxudum. Bu 50-60-cı illərdə xəbərlər proqramında gedən mətnlərin adda-budda, nizamsız köçürmələri idi…. Qocanın, bu mətnləri təqaüdə çıxdığı uzun-uzun dövrlər, aylar və illərlə özünü aldatmaq məqsədilə qurduğu yalançı iş prosesi zamanı küncdə işləyən televizorda, ya bəlkə, yazı masasının bir kənarında səhər-axşam uğuldayan tranzistorda verilən xəbərlərdən köçürdüyü gün kimi aydın idi…”[16] Hekayə yazıçının qocanın ölümündən sonra qızından icazə alaraq həmin qovluqları aparması ilə yekunlaşır.

Afaq Məsudun eyni adlı və eyni mövzulu pyesində isə hadisələr bir qədər fərqli şəkildə cərəyan edir. Qeyd edək ki, hekayədə əsas

---

[15] Məsud A. Seçilmiş əsərləri.2 cilddə. (I cild).Bakı, “Elm və təhsil”, 2012, səh. 28
[16] Məsud A. Seçilmiş əsərləri.2 cilddə. (I cild).Bakı, “Elm və təhsil”, 2012, səh. 36

obrazlar yazıçı, qoca, qocanın qızı Səidə, qocanın kənddən gəlmiş əmioğlusu və onun yanındakı kiçik oğlan uşağıdır. Pyesdə isə süjetə bir sıra surətlər əlavə edilmişdir. Burada hekayədəki obrazlardan əlavə mərhumlar- qocanın arvadı Xədicə, sürücüsü Qafar və keçmiş iş yoldaşı olmuş məmur, mistik obrazlar – enerji təchizatı idarəsinin əməkdaşı cildində əzrayıl və həkim cildində mələk iştirak edirlər. Yazıçı pyesi bu şəkildə adlandırmışdır: "Can üstə (İki hissəli müəmmalı qətl hadisəsi)". Qeyd edək ki, pyes sələfi olan hekayədən fərqli olaraq mistik məqamlarla zəngin bir əsərdir. Hekayədən fərqli olaraq burada qoca ilə yazıçı açıq mükaliməyə girişirlər və hər biri özünü haqlı çıxarmağa çalışır. Qocanın xarakterinin və gizlədiyi sirlərin nədən ibarət olduğunun aşkara çıxmasında yeni obrazlarla – mərhumlar və əzrayılla dialoqlar mühüm rol oynayır. Digər tərəfdən pyesdə yazıçının qocanın sənədləri ilə maraqlanmasının səbəbi hekayədəki kimi onun vəzifədə olduğu dövr haqqında roman yazması deyil. Yazıçı qocanın 37-ci il repressiyası ilə əlaqədar olduğunu və həmin qovluqlarda həmin illərin qurbanları, o cümlədən, repressiyaya uğramış nənəsi Müşkünaz haqqında məlumatların olduğuna inanır:

"**Qoca.** (Yazıçının üstünə yeriyir) Sən gəl burda ara qarışdırma!.. Gah mənə cumursan, gah qovluqlara, gah "nənəm" deyib dad eləyirsən… Qarnuun ağrısını de, biz də bilək, balam da!..

**Yazıçı.** (fikri qovluqlarda) Mən sizə demişəm.

**Qoca.** Nəyi demisən? **…** Altmış il bundan əvvəl bu dünyadan köçmüş nənəni burada niyə axtarırsan? Dediyün budu, balam da, bəlkə düz demirəm?... Harada görünüb ki… (tamaşaçılara) qovluqlarda da adam axtararlar?..

**Yazıçı.** Qovluqlar mənə ayrı məsələdən ötrü gərəkdilər.Yüksək vəzifələrdə işlədiyiniz 37-ci illər barədə material toplayıram." [17]

Qocanın sayıqlamaları, mərhumlarla dialoqları da yazıçının ehtimallarının doğruluğunu təsdiqləyir.

Pyes olduqca maraqlı bir sonluqla bitir. Pyesin sonunda qocanın öləcəyi gözlənildiyi, tamaşaçının Əzrayılın məhz onun arxasınca gəldiyinə əmin olduğu məqamda qəfildən işıq dəyişir. İşıq yanand isə ölənin qocanın qohumu olduğu məlum olur. Qohumun missiyasını isə qoca öz üzərinə götürərək onun tabutunun arxasınca dua oxuya-oxuya gedir. Otaqda qalan yazıçı isə qovluqları götürərək məkanı tərk edir.

---

[17] Məsud A. Seçilmiş əsərləri. 2 cilddə. (II cild).Bakı, "İrfan", 2012, səh. 367.

Afaq Məsudun “Müvəkkil Vaysman”, “Dahi” və “S.V.A.C.O.” hekayələri də Azərbaycan ədəbiyyatında hipermətnin ilk nümunələrindən hesab oluna bilər. Belə ki, bu hekayələrin hər üçünün qəhrəmanı Qulam Hüseynlidir. “Qələm” mərkəzinin sədri olan bu yazıçı, ədəbiyyatşünasın obrazında Afaq Məsud tipik ziyalı obrazını yaratmağa cəhd etmişdir. “Müvəkkil Vaysman” hekayəsində yazıçı Qulam Hüseynlini alman səfirliyinin əməkdaşı Vaysmanla görüşdürür. Akademiyada keçirilən əcnəbilərlə elmi əməkdaşlığa həsr edilmiş bir tədbirdə Qulam Hüseynli əcnəbiləri gördükdə müvəkkil Vaysmanla görüşünü xatırlayır. Mərkəzə nəşr sifarişi almaq üçün getdiyi alman səfirliyi və səfirliyin əməkdaşı haqqında düşüncələr fonunda obrazın daxili aləmi, yaşantıları və gözləntiləri məharətlə təsvir edilir. “…Vaysmanın ürək dərmanı iyi qoxuyan balaca, səliqəli otağına daxil olduqda isə - adamdan çox, qorxunc elektron qurğusuna bənzəyən bu almanla üzbəüz oturandan ikicə dəqiqə sonra Qulam Hüseynli tutduğu bu işə ürəkdən peşman olmuşdusa da, ölüm düşərgəsini xatırladan bu qaradinməz quruma göndərdiyi məktubunu ürəyində yüz dəfə ikiyə bölüb xırda-xırda doğramışdısa da, canını Vaysmanın şüşə gözlərindən qurtara bilməmişdi…”[18]

“Dahi” hekayəsində isə hadisələr “Qələm” mərkəzinin əməkdaşlarına və o cümlədən mərkəzin sədri Qulam Hüseynliyə mənzil verilməsi fonunda cərəyan edir. Özlərindən xoflu “yazıçıların” bu xəbərə, kölgəsini qılıncladıqları prezidentin bu alicənab hərəkətindən yaranan şoka dözməyərək halının pisləşdiyini görən Qulam Hüseynli də qəribə bir xofun ağuşuna düşür.

Afaq Məsudun yaratdığı hipermətnin son halqası “S.V.A.C.O.” hekayəsidir. Bu hekayədə Qulam Hüseynli muzeydə şair Bitkinin yaradıcılıq gecəsində iştirak edir və bu gecədə şair haqqında maraqlı və qəribə faktlar kəşf edir. S.V.A.C.O. abreviaturası ilə damğalanmış dəvətnamə əsasında bu tədbirə gələn Qulam Hüeynli tədbirdən qəribə və anlaşılmaz duyğularla, xofla ayrılır: “Bitkinin bir-birindən əcaib fotoları, salon boyu aramla yerini dəyişən ədəvasayağı qorxu layı, döyüşə hazırlaşan tək, dabanlarını yerə vura-vura nə isə eləməyə köklənmiş yekəpər rus qadınları Qulam Hüseynlinin anadan olandan bəri yaşadığı hər küçəsinə, az qala, hər tininə bələd olduğu bu şəhərdə nə vaxtdan bərisə hansısa məxfi, məxfi olduğu qədər də təhlükəli olan nəyinsə,

---

[18] Məsud A. Seçilmiş əsərləri.2 cilddə. (I cild).Bakı, “Elm və təhsil”, 2012, səh.45.

hansısa gizli prosesin işə düşdüyündən xəbər verirdi... Bu nə ola bilərdi?”[19]. Evə çatdıqda isə televizorda dustaqxanalardan birində rus dilli azərbaycanlı zabitlər tərəfindən törədilmiş qiyamın yatırılması haqqında reportajı izləyərkən dustaqxana kamerasının divaında yazılmış S.V.A.C.O. abreviaturası onu şoka salır.

**“Ədəbiyyatda “fanat mətni”- “fan-fiction””** adlı sonuncu yarımfəsildə arxetipin formaca yeni növlərindən biri olan «fan-fiction» (“fanfikşen” kimi oxunur) tədqiq edilir. “Fan” – ingiliscə “fanat”, “azərkeş”, “ventilyasiya”; “fiction” isə “bədii əsər” deməkdir. Azərbaycan ədəbiyyatında bu forma yeni yarandığından və buna uyğun gələn termin olmadığından dissertasiyada bu janra uyğun əsərləri dünya ədəbiyyatında qəbul olunmuş şəkildə «Fan-fiction» (“fanat mətni”) kimi qeyd etmək, mötərizədə isə kalka yolu ilə tərcümə olunmuş variantını göstərmək qərarına gəldik.

«Fan-fiction» (“fanat mətni”) hər hansı məlum əsərə oxucular tərəfindən düzəlişlərin edilməsidir. Oxucu əsərdə hansısa obrazın taleyini dəyişdirə, yaxud tam fərqli xarakterdə təqdim edə bilər. Belə ki, oxucu əsəri oxuyarkən ona öz münasibəti yaranır və o öz versiyasını «Fan-fiction» (“fanat mətni”)vasitəsilə təqdim edir.

Tədqiqatçılar «fan-fiction»un əsas iki növünü göstərirlər:

1. Professional yazıçılar tərəfindən yaradılan
2. Qeyri-professional fanatlar tərəfindən yaradılan[20]

Azərbaycan ədəbiyyatında professional yazıçılar tərəfində yazılan «fan-fiction»lara misal olaraq K. Abdullanın «Yarımçıq əlyazma», İlqar Fəhminin “Qarğa yuvası”, Günel Anarqızının “Altıncı” romanlarını göstərmək olar.

Kamal Abdullanın «Yarımçıq əlyazma» əsəri “Kitabi - Dədə Qorqud” eposunun həm dekonstruksiyası, həm də bu dastana yazılmış «Fan-fiction» (“fanat mətni”) hesab oluna bilər. Bu əsərdə K. Abdulla “Kitabi – Dədə Qorqud” əsərini dekonstruksiya edərək orta əsrlərə məxsus kanonik bir mətnin məlum variantından fərqli versiyasını – öz “fan-fiction”unu təqdim edir.İlqar Fəhminin “Qarğa yuvası” romanı isə Koroğlu dastanın dekonstruksiya olunmuş variantıdır. Bu əsəri müəllifin bəlli eposa yazdığı professional fan-fiction kimi də qiymətləndirmək olar.

---

[19] Məsud A. Seçilmiş əsərləri.2 cilddə. (I cild).Bakı, “Elm və təhsil”, 2012, səh. 84

[20] Geybullayeva R. From archetypal situation to archetypised words or words as unit of semantic reinterpretations// Archetypes in Literatures and Cultures. Peter Lang Publisher. Frankfurt am Main, Berlin, Bern, Bruxelles, New York, Oxford, Wien. 2012. pp.15

Şübhəsiz, Azərbaycan ədəbiyyatının sevilən və kamil nümunələrindən biri olan Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" və müəyyən hadisələrin təkrarlanmasına görə bu əsərin sələfi hesab oluna biləcək "Ağ liman" əsərinin qəhrəmanları olan Təhminə və Zaurun məhəbbət macərasının əsasında qurulan iki «fan-fiction» ("fanat mətni") nümunəsini təhlilə cəlb etmək istərdik.

Günel Anarqızının "Altıncı" romanını bu əsərə yazılmış professional «Fan-fiction» ("fanat mətni") hesab edə bilərik. Belə ki, əsər Təhminənin gündəliyi kimi yazılmışdır. Bu gündəlik vasitəsilə Təhminənin Zaurdan əvvəlki həyatının daha geniş şərhi və ştrixləri oxucuya təqdim edilir. Anarın əsərində bizə bir cümlə ilə çatdırılan hadisələr burada tam və əhatəli şəkildə açılır.

Bu sıradan qeyd etmək istədiyimiz digər «fan-fiction» ("fanat mətni") nümunəsi hesab oluna biləcək əsər Ziyad Quluzadənin "Kəpənəkdoğan" əsəridir. Z. Quluzadənin "Kəpənəkdoğan" əsəri Günel Anarqızının "Altıncı" romanından fərqli olaraq professionallıqda adı çəkilən əsərlərdən geri qalsa da dini-mistik məndəricəsi ilə fərqlənir və əsərin qəhrəmanlarının sonrakı taleyini, daha doğrusu alternativ taleyini əks etdirməklə oxucunun diqqətini maraqlı məqamlara yönəldir. Bundan başqa bir məqam da diqqətdən kənar qalmamalıdır. Belə ki, Təhminə obrazı ilə bağlı Azərbaycan ədəbi tənqidində müxtəlif baxışlar olmuş və oxucuların da əks qütblü fikirləri formalaşmışdır. Anardan sonra bu əsərin fan-fictionunu yaradan müəlliflərin də təfəkküründə bu fikirlər müxtəlif cür əks olunub. Günel Anarqızının "Altıncı " əsərində müəllif Təhminə haqqındakı stereotip fikri müəyyən qədər yumşaltmağa çalışır. Lakin oxucunun Təhminəyə yazığı gəlsə də obraz öz gözəlliyini və kamilliyini itirir. Z. Quluzadə isə "Təhminə stereotipini" nəsildən-nəslə keçən irsi fenomen həddinə qaldırır. Onun yaratdığı Təhminə daha zəif xarakterdir. Əsərdə Anarın Təhminəsinin yerinə əxlaqsızlığına "fəlsəfi tənhalıq", övladına qarşı amansızlığına isə "normal əxlaqlı ana" donu geydirən standart bayağı qadın görürük. Buradan aydın olur ki, Anarın yaratdığı Təhminə xarakter olaraq daha dolğun və mənfi cəhətləri ilə belə oxucuda özünə hörmət, yazıçıya heyranlıq doğura bilən obrazdır.

Azərbaycan ədəbiyyatında fan-fictionla bağlı digər bir layihə Azərbaycan Müqayisəli Ədəbiyyatşünaslıq Assosiasiyasının adı ilə bağlıdır. Belə ki ilk dəfə bu təşkilatın təşəbbüsü ilə Müqayisəli ədəbiyyat fənnini öyrənən tələbələr öz seçdikləri əsərlərə - Ramiz Rövşənin "Daş" povestinə, M. Süleymanlının "Şeytan" əsərinə, Cəlil Məmmədquluzadənin

"Buz" hekayəsinə «Fan-fiction» ("fanat mətni") yazmışlar. Bu fan-fictionun ("fanat mətni"nin) həvəskarlar tərəfindən yazılan formasıdır.

Beləliklə yuxarıda qeyd etdiyimiz kimi hal-hazırda XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında arxetipin iki yeni forması – «Fan-fiction» ("fanat mətni") və «hipermətn» özünü göstərməkdədir. Lakin bu iki formaya aid nümunələr də hələ təkamül prosesindədir.

Dissertasiyanın **"Nəticə"** hissəsində araşdırmada gəlinmiş qənaətlər ümumiləşdirilir, aparılmış tədqiqata yekun vurularaq, aşağıdakı nəticələrə gəlinir:

- Arxetip haqqında olan çoxsaylı nəzəriyyə və konsepsiyaların müddəalarını Azərbaycan ədəbiyyatının öyrənilməsi üçün tətbiq etdikdə aydın olur ki, bu istiqamətdə aparılacaq tədqiqatlar ədəbiyyatşünaslığımızın inkişafına böyük töhfələr verə bilər. Bu ondan irəli gəlir ki, bu istiqamətdə aparılan tədqiqatlar nəinki müəyyən obrazların və süjetlərin formalaşmasının mənbəyini və səbəblərini, həmçinin onların Azərbaycan ədəbiyyatında təzahür xüsusiyyətlərini də aşkar etməyə imkan yaradır.

- Dünyada gedən qloballaşma və beynəlmiləlləşmə prosesləri fonunda müxtəlif ədəbiyyatlar arasında əlaqələrin intensivləşməsi də özünü daha qabarıq biruzə verməyə başlamışdır. Bu səbəbdən də bir tərəfdən dünya ədəbiyyatı ilə qarşılıqlı müqayisə və təhlilləri təmin edən digər tərəfdən milli ədəbiyyatın özünəməxsusluğunu vurğulayan arxetiplərin araşdırılması vacib məsələlər sırasına daxildir.

- Qeyd etmək lazımdır ki, dissertasiyada arxetiplərin Azərbaycan ədəbiyyatında əksi probleminə kompleks halında yanaşılmış, XX və XXI əsr yazarlarının əsərlərində əks olunmuş motivlərə diqqət yetirilmişdir. Eyni zamanda arxetiplərin yeni formada təzahürünə artıq ədəbiyyatda müəyyən mənada sözünü demiş yazıçılarla bərabər gənc yazarların əsərlərində də rast gəlmək mümkündür. Araşdırmada həm gənc, həm də yaşlı ədəbi nəslin əsərlərinin təhlilinə geniş yer verilməklə müqayisəli təhlillər aparılmışdır.

XXI əsrin əvvəlləri Azərbaycan ədəbiyyatında arxetiplərin əksi özünü iki səviyyədə göstərir:

1]Müəyyən arxetiplərin əsərlərdə birbaşa istifadəsi. Məsələn, dəyirman arxetipi, dərviş arxetipi, ağac arxetipi, su arxetipi, «oxşar» arxetipi, «əlyazma» arxetipi və s.

2] Arxetipik bir süjetin, obrazın yeni yaradılan əsərdə tam fərqli şəkildə göstərilməsi.

Arxetip süjetlərin əksində Azərbaycan ədəbi nümunələrinin özünəməxsusluğu diqqəti cəlb edir və arxetipin strukturca yeni formaları

olan «fan-fiction» və «hipermətn»in - internet resurslarından və ensiklopediya strukturundan gələn bu anlayışların Azərbaycan ədəbiyyatında hələ ilkin rüşeymləri mövcuddur, araşdırdığımız nümunələrdə təkmilləşmə prosesi izlənilir və qeyd etmək istərdik ki, gənc müəlliflərlə yanaşı orta yaşlı nəslin nümayəndələri olan müəlliflərin əsərlərində də arxetipik motivlərə eyni maraq hiss olunmaqdadır. Arxetipin yeni formalarının tədqiqindən belə nəticəyə gəlmək olar ki, müasir Azərbaycan ədəbiyyatının növbəti inkişaf mərhələlərində arxetiplərin təzahüründə daha yeni struktur formaların meydana çıxması mümkündür.

Dissertasiyanın biblioqrafiya hissəsində istifadə olunmuş elmi-nəzəri və bədii əsərlərin əlifba sırası ilə üç dildə siyahısı verilmişdir.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı tezis və məqalələrində öz əksini tapmışdır:**


1. Aidin Talibzade's postmodern fiction “Kəpənək modeli -102” (“The model of Butterfly – 102”) in context of postsoviet Azerbaijani literature. / Abstracts: VIII World Congress. Eurasia: Prospects for Wider Cooperation. Stockholm 26-31 July 2010, səh. 231.
2. Ədəbiyyatda dəyirman arxetipi və onun modifikasiyası/“Müqayisəli ədəbiyyat: ədəbiyyatlarda və mədəniyyətlərdə arxetiplər”. IV beynəlxalq elmi konfransın materialları. Bakı, 22-23 oktyabr 2010. səh. 33
3. Azərbaycan ədəbiyyatında dərviş obrazı və onun ikili təsviri./ Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. VI buraxılış – Bakı, 2010. səh.125-128.
4. Bəxtiyar Vahabzadə yaradıcılığında ağac arxetipi./ Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. IV buraxılış – Bakı, 2012. Səh. 119-123
5. The Mill Archetype. / Archetypes in Literatures and Cultures. Peter Lang Publisher. Frankfurt am Main, Berlin, Bern, Bruxelles, New York, Oxford, Wien. 2012. Səh. 219-227. (**Thomson&Reuters**)
6. Müasir Azərbaycan ədəbiyyatında məktub obrazı./Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş gənc tədqiqatçıların I beynəlxalq elmi konfransı.25-26 aprel 2013-cü il Bakı, Qafqaz Universiteti,Nurlar nəşriyyatı. Səh 424-425
7. Bədii təxəyyülün özəl libası:gündəlik. /Müqayisəli ədəbiyyat: ədəbiyyat və mədəniyyətlərdə istorioqrafiya: mif, ədəbiyyat və tarix arasında. - Bakı:Mütərcim, 2013. Səh. 99

8. Umberto Eko və Kamal Abdulla yaradıcılığında əlyazma arxetipi./ Ədəbiyyat məcmuəsi (Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri). Bakı, Elm və təhsil, 2014. səh. 103-111.
9. Ədəbiyyatda siyasi oxşar (dvoynik) arxetipinin təzahür formaları (K. Abdullanın "Yarımçıq əlyazma" və L. Feyxtvangerin "Yalançı Neron" əsərlərinin əsasında)/ Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 92 illiyinə həsr edilmiş gənc tədqiqatçıların III beynəlxalq elmi konfransı.17-18 aprel 2015-ci il Bakı, Qafqaz Universiteti, Şərq-Qərb nəşriyyatı. Səh. 795-796
10. Müasir Azərbaycan ədəbiyyatında fan-fiction/ Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. № 1.Bakı: Mütərcim, 2015. Səh. 98-101
11. Afaq Məsudun "İzdiham" romanında "şüur seli" / Filologiya məsələləri. № 6. Bakı: Elm və təhsil, 2015. Səh. 312-317
12. Kamal Tahirin Dövlət ana əsərində persona arxetipi/"Türk xalqları ədəbiyyatı: mənşəyi, inkişaf mərhələləri və problemləri" mövzusunda beynəlxalq elmi konfrans. 1-2 dekabr 2015-ci il. Bakı: Elm və təhsil. Səh. 418-421
13. Ədəbiyyatda fanat mətni (fan-fiction) və millilik./ Müqayisəli ədəbiyyat və mədəniyyət: ədəbiyyatın və mədəniyyətin başlanğıc meyarları. Bakı Slavyan Universiteti və Azərbaycan Müqayisəli Ədəbiyyatşünaslıq Assosiasiyası. 27-28 noyabr 2015-ci il. Bakı: Mütərcim. Səh. 35

**Elnara Garagyezova Elkhan**

# THE NEW FORMS OF THE ARCHETYPE IN AZERBAIJANI LITERATURE IN BEGINNING OF THE XXI CENTURY

## SUMMARY

The dissertation has been devoted to the study of the new archetype forms in Azerbaijan literature in beginning of the XXI century. This work consists of an introduction, two chapters, conclusion and summary.

Introduction based on the theme, the purposes and aims of research, innovation, practical and thereotical importance.

The first chapter, entitled "The "manuscript" (genre) and "double" (image) archetypes in Azerbaijan literature in the beginning of the XXI century", consists of four subchapters. They accordingly focused on theory of archetypes, archetypes of tree, dervish, water, mill in modern Azerbaijan literature with special research on archetypes of "manuscript" and "double". İn beginning of the XXI century archetype of manuscript is very popular in Azerbaijan literature. It is necessary to note that this archetype appeared in the XX century literature too. From this point of view investigation of the appearance forms of manuscript archetypes is quite interesting.

Archetype of double is one of interesting archetypes which metting in world literature. The archetype of shadow which always longing for freedom and which being in the balance with the archetype of person have been reflected in the literature in different forms. Archetype of "double" is one of forms of the shadow archetype and it related with private and collective unconsciousness.

The last part of dissertation - "The new forms of archetypes in Azerbaijan literature in beginning of XXI century: fan-fiction and hypertext" consists of three subchapters.Appearance of new forms of archetype in Azerbaijan literature at the beginning of the XXI century, new forms of archetype "fan-fiction" and "hypertext" (both by technic of creation) is analysed on the literary works of middle aged and young writers.

In Conclusion are summarized reflection and alteration of semantic invariant of archetypes, in Azerbaijan literature on literary examples end of the XX century and the beginnings of XXI century with main two forms at the beginning of the XXI century.

**Эльнара Эльхан кызы Гарагёзова**

# НОВЫЕ ФОРМЫ АРХЕТИПА В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ В НАЧАЛЕ XXI ВЕКА

## РЕЗЮМЕ

Диссертация посвящена изучению новых форм архетипа в азербайджанской литературе в начале XXI века. Работа состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во введении прослеживается актуальность темы, определяются цели и задачи исследования, научная новизна и практическое значение.

Первая глава, названная «Архетипы «рукопись» (жанр) и «двойник» (образ) в азербайджанской литературе в начале XXI века» состоит из четырех подглав, в которых поставлены вопросы теории архетипов, анализируются архетипы «вода», «дервиш», «мельница», «дерево». Особым объектом внимания стали архетипы «двойник» и «рукопись» на основе произведений конца XX- начала XXI века. На фоне глобализации связи между мировыми литературами стало более тесными. С этой точки зрения исследование архетипов, которое выражает своеобразие и идентичность национальной литературы и их сопоставительный анализ с мировой литературой имеет большое значение для азербайджанского литературоведения.

Вторая глава, названная «Новые формы архетипа в азербайджанской литературе в начале XXI века: «фан-фикшен» и «гипертекст»», состоит из трех разделов. Здесь исследуется разнообразие этих форм через сравнение произведений среднего и юного поколений азербайджанской литературы. В азербайджанской литературе новые структурные формы архетипа - «фан-фикшен» и «гипертекст» отражалась своеобразно. Эти формы пока не используются широко в отечественной литературе. Но примеры произведений, которые соответствуют этих новым формат архетипа, дают надежду на развитию «фан-фикшена» и «гипертекста».

В заключении обобщены результаты исследования, а именно, как теория архетипов проявляется на основе азербайджанской литературы. Архетипический образ или сюжет подвергается изменением и создаются альтернативные семантический варианты.

AMEA-nın mətbəəsində çap olunub
Tiraj-100

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ им. НИЗАМИ**

*На правах рукописи*

**ЭЛЬНАРА ЭЛЬХАН кызы ГАРАГЁЗОВА**

# НОВЫЕ ФОРМЫ АРХЕТИПА В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ НАЧАЛА XXI ВЕКА

**5716.01 – Азербайджанская литература**
**5715.01 – Теория литературы, литературный анализ и критика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени доктора философии по филологии**

**БАКУ –2016**